

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 117 (21.527)

*26 iyun 2016-cı il, bazar*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

İyunun 25-də Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Silahlı Qüvvələrin Baş Qərargahının yeni inzibati binasının açılışında iştirak edib.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verib.

Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsib.

Sonra Prezident İlham Əliyev binada yaradılan şəraitlə tanış olub.

Binada ulu öndər Heydər Əliyevin büstü qoyulub, ümummilli liderin həyat və fəaliyyətinin əks olunduğu muzey yaradılıb.

Bildirilib ki, ümumi sahəsi 12600 kvadratmetr olan altımərtəbəli binada bütün otaqlar müasir avadanlıq və inventarla təchiz edilib.

Daha sonra Prezident İlham Əliyev Mərkəzi Komanda Məntəqəsinin fəaliyyəti ilə tanış olub.

Sonda Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev müxtəlif təyinatlı zirehli döyüş maşınlarına baxıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev iyunun 25-də Bakının Xətai rayonunda hərbçilər üçün inşa edilmiş binada yaradılan şəraitlə tanış olub.



## Naxçıvanda zabit ailələrinə yeni xidməti mənzillər təqdim olunmuşdur





Güclü iqtisadiyyata malik olan ölkəmizdə müasir və qüdrətli milli ordu formalaşmışdır. Bunun nəticəsidir ki, Naxçıvan Muxtar Respublikasında ordu quruculuğu tədbirləri uğurla davam etdirilir. Muxtar respublikada ordu, birləşmə və hissələrin döyüş qabiliyyəti və maddi-texniki bazası gücləndirilməklə yanaşı, hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi, mənzil-məişət şəraitinin yaxşılaşdırılması da diqqət mərkəzində saxlanılır. Hər il yeni xidməti yaşayış binaları tikilir, zabit-gizir ailələri mənzillərlə təmin olunurlar.

İyunun 25-də Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü münasibətilə Naxçıvan şəhərində 9 zabit ailəsinə yeni xidməti mənzillər təqdim olunmuş, hərbi şəhərcikdə yeni park istifadəyə verilmişdir.

Azərbaycan Respublikası müdafiə nazirinin müavini, Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə raport vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü və yeni mənzillərlə təmin olunmaları münasibətilə zabit ailələrini təbrik edərək demişdir: Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2016-cı il 24 iyun tarixli sərəncamlarına əsasən Əlahiddə Ümumqoşun Ordunun 1 hərbi qulluqçusuna ali hərbi rütbə verilmiş, 6 hərbi qulluqçu medallarla təltif olunmuşdur.

Silahlı Qüvvələr Günü ərəfəsində muxtar respublikada da bir sıra tədbirlər keçirilmiş, Heydər Əliyev adına Hərbi Lisey kursantlarının buraxılış mərasimi olmuşdur. Bu gün isə 9 zabit ailəsinə yeni xidməti yaşayış mənzilləri təqdim olunur, hərbi şəhərcikdə yeni istirahət parkı istifadəyə verilir.

Ali Məclisin Sədri demişdir: Ölkəmizdə ordu quruculuğu sahəsində müxtəlif tədbirlər həyata keçirilir. Bu gün Silahlı Qüvvələrimizin maddi-texniki bazası gücləndirilir, ən müasir silahlarla təmin olunur, hərbi təlimlər keçirilir, şəxsi heyətin döyüş qabiliyyəti artırılır. Digər tərəfdən isə zabit-gizir ailələrinin mənzil-məişət şəraiti yaxşılaşdırılır, onların istirahəti təmin edilir. Bütün bunların nəticəsidir ki, Azərbaycan Respublikası Silahlı Qüvvələri Cənubi Qafqazın ən güclü və qüdrətli orduсuna çevrilmişdir.

Ali Məclisin Sədri demişdir: Qüsursuz xidmət edən hərbi qulluqçulara yeni mənzillərin verilməsi, zabit ailələrinin xidməti yaşayış mənzilləri ilə təmin olunması hərbi xidmətin daha rahat təşkilinə şərait yaradır. Çünki zabit ailələrinin rahat yaşayışı, problemlərinin həlli imkan verir ki, onlar xidmətini də nümunəvi təşkil etsinlər. Muxtar respublikada yerləşən ordu, birləşmə və hissələrdə xidmət edən hərbi qulluqçuların mənzil şəraitinin yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır. İstər Naxçıvan şəhərində, istərsə də ən ucqar sərhəd bölgəsində xidmət edən zabitlər, əsgərlər lazımi sosial-məişət şəraiti ilə təmin olunurlar.





Ali Məclisin Sədri qeyd etmişdir ki, muxtar respublikamız blokada şəraitində yaşayır, Naxçıvan işğalçı ölkə ilə sərhəddə yerləşir. Ona görə də ordu quruculuğu sahəsində kompleks tədbirlər görülür, xalq-ordu birliyi möhkəmləndirilir, əlamətdar günlərdə ordumuzla həmrəylik nümayiş etdirilir. Bütün bunların nəticəsidir ki, insanlar ordumuza güvənərək düşmənlə sərhəd yaşayış məntəqələrində rahat yaşayır, təsərrüfatla məşğul olurlar. Ona görə də muxtar respublikada hərbi xidmət bundan sonra da nümunəvi təşkil olunmalıdır. Zabitlər öz xidmətləri ilə seçildikləri kimi, onların ailələri də təqdim olunan xidməti mənzilləri, eləcə də tikilənləri, qurulanları qoruyub saxlamalıdırlar.

Ali Məclisin Sədri general-mayor ali hərbi rütbəsini Əlahiddə Ümumqoşun Ordunun zabiti Elxan Əlibəyova təqdim etmiş, təltif olunan zabitləri və mənzillə təmin olunan ailələri bir daha təbrik etmişdir.

Zabit ailələri adından Şahilə Orucova və Nigar İslamova minnətdarlıq edərək demişlər ki, ölkəmizdəki inkişaf və tərəqqi hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsinə də səbəb olmuşdur. Bu gün zabit ailələrinin mənzillə təmin olunması bunu bir daha təsdiq edir. Muxtar respublikada bu işlər artıq ənənə halını almışdır. Hər il yeni yaşayış binaları tikilərək istifadəyə verilir. Hazırda muxtar respublikamızda zabit ailələrinin rahat yaşaması üçün bütün tədbirlər görülür. Ümummilli liderimiz Heydər Əliyev zabit peşəsini ən şərəfli peşə kimi qiymətləndirirdi. Bu gün onun yolu ölkəmizdə, eləcə də muxtar respublikada uğurla davam etdirilir. Zabitlərin xidmətlərinin nümunəvi təşkili və rahat yaşaması üçün ardıcıl tədbirlər görülür.

*Ardı 2-ci səhifədə*

Hər bir zabit ailəsi dövlətin qayğısını üzərində hiss edir.

Ali Məclisin Sədri mənzillərin açarlarını zabit ailələrinə təqdim etmiş, onlara firavan həyat arzulamışdır.

İki və üçotaqlı mənzillərdə bütün kommunal məişət şəraiti yaradılmış, mebel dəstləri qoyulmuşdur. Mənzillə təmin olunan zabit ailələrinə xalça hədiyyə olunmuşdur.

Sonra Ali Məclisin Sədri istirahət parkında yaradılan şəraitlə tanış olmuşdur. Muxtar respublikamızda hərbi qulluqçuların məişət şəraitinin yaxşılaşdırılması ilə yanaşı, onların istirahətlərinin mənalı təşkili də diqqət mərkəzində saxlanılır, yeni sosial təyinatlı obyektlər tikilərək istifadəyə verilir. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq Naxçıvan şəhərində yeni istirahət parkı salınmışdır. Bir hektar sahəni əhatə edən parkda 80 növdən artıq gül kolu və dekorativ ağaclar əkilmiş, fontan düzəldilmiş, müasir işıqlandırma sistemləri qurulmuşdur. Parkın ərazisində oturacaqlar və şahmat stolları qoyulmuş, konsert və mədəni-kütləvi tədbirlərin təşkili üçün səhnə yaradılmışdır.

Tikinti işləri aparılarkən hərbi şəhərcikdəki 6 xidməti yaşayış binası da yenidən qurulmuş, binaların kommunikasiya xətləri, qapı, pəncərə və dam örtükləri yenilənmişdir.

Ali Məclisin Sədri hərbi şəhərcikdə tikinti-quruculuq işlərinin davam etdirilməsi, ərazidə zabit ailələrinin istirahəti üçün bundan sonra da lazımi şəraitin yaradılması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**



## Muxtar respublikada taxıl biçini aparılır





Muxtar respublikada taxılçılığın inkişafı sahəsində kompleks tədbirlər görülür, əsas ərzaq məhsuluna olan tələbatın yerli istehsal hesabına ödənilməsi diqqət mərkəzində saxlanılır. Hər il taxıl əkini sahələri genişləndirilir, aqrotexniki tədbirlər həyata keçirilir, məhsuldarlığın artırılması istiqamətində ardıcıl tədbirlər görülür. Cari ilin məhsulu üçün 26 min 795 hektar sahədə buğda, 4 min 784 hektar sahədə isə arpa əkilmişdir. Taxılçılıqla məşğul olan torpaq mülkiyyətçilərinə dövlət maliyyə dəstəyinin göstərilməsi, onların keyfiyyətli toxum sortları və texnikalarla təminatı bol məhsul istehsalına, biçin kampaniyasının vaxtında və itkisiz başa çatdırılmasına imkan verir.

İyunun 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Kəngərli rayonunun Böyükdüz kəndindəki taxıl əkini sahəsinə gəlmiş, taxıl biçininin gedişi ilə maraqlanmışdır.

Məlumat verilmişdir ki, 306 hektar sahədə şırım üsulu ilə yerli iqlim şəraitinə uyğun məhsuldar “Qobustan” toxum sortu əkilmişdir. Əkin sahəsində vegetasiya dövründə heç bir xəstəlik və zərərvericilərə rast gəlinməmişdir. Biçinə “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin 8 kombaynı cəlb olunmuş, mexanizator və kombaynçılar üçün lazımi şərait yaradılmışdır. Bu günə qədər 120 hektarda biçin işləri başa çatdırılmışdır. Məhsuldarlıq orta hesabla 29,3 sentnerdir.

Kəngərli rayonunda yeni suvarma şəbəkəsinin istifadəyə verilməsi ilə ərazinin su təminatı yaxşılaşdırılmış, torpaq sahələri əkin dövriyyəsinə qatılmışdır. Hazırda ərazidə yeraltı suvarma sistemləri qurulur.

Ali Məclisin Sədri muxtar respublikamızda taxılın vaxtında və itkisiz toplanılması, eləcə də yerli iqlimə uyğunlaşdırılmış məhsuldar toxumların tədarükü barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Ziyarət olunan muzeylərin sırasına Əlincəqala da qoşulub



***İyunun 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının kollektivi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin əməkdaşları “Əlincəqala” Tarix-Mədəniyyət Muzey Kompleksində olmuşlar.***

Məlumat verilmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 11 fevral tarixli Sərəncamına əsasən, “Əlincəqala” tarixi abidəsi bərpa olunmuş və muzeyi yaradılmış, iyunun 17-də “Əlincəqala” tarixi abidəsi və muzeyinin açılışı olmuşdur. Bildirilmişdir ki, Azərbaycan xalqının mübarizlik və vətənpərvərlik əzmini nümayiş etdirən tarixi qalalarımızdan biri də Əlincəqaladır. Qala birinci-altıncı əsrlərdən başlayaraq müdafiə istehkamı və yaşayış yeri kimi istifadə olunmuş, 14 il Əmir Teymurun qoşunlarının hücumlarına müqavimət göstərmişdir.

Bildirilmişdir ki, muzey binası 2 iş otağı və ekspozisiya zalından ibarətdir. Burada Əlincəqalada məskunlaşan insanların həyat tərzini əks etdirən maddi-mədəniyyət nümunələri, xüsusilə qədim məişət əşyaları, qalada aparılan arxeoloji qazıntılar zamanı tapılan maddi nümunələr, Naxçıvanın və Əlincəqalanın tarixi ilə bağlı yazılmış kitablar, qəzet məqalələri, qalanın bərpadan əvvəl, bərpa zamanı və bərpadan sonrakı fotoşəkilləri nümayiş etdirilir. Buradakı saxsı qab və çıraqlar, Əlincəqala ərazisindən aşkar olunmuş boyalı keramika parçaları Azərbaycanda sənətkarlıq ənənələrinin qədim dövrlərdən formalaşdığını göstərən nadir eksponatlar kimi böyük əhəmiyyətə malikdir. Bütün bunlar həm də xalqımızın orta əsrlər dövrünə aid məişət mədəniyyəti haqqında dolğun təəssürat yaradır.

Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının, Ali Məhkəmənin kollektivləri də “Əlincəqala” Tarix-Mədəniyyət Muzey Kompleksini ziyarət etmişlər.

Naxçıvan Muxtar Respublikası Təhsil, Mədəniyyət və Turizm, Gənclər və İdman nazirliklərinin əməkdaşları Heydər Əliyev Muzeyində, Rabitə və Yeni Texnologiyalar, Kənd Təsərrüfatı və Səhiyyə nazirliklərinin kollektivləri Dövlət Bayrağı Muzeyində, İqtisadiyyat, Nəqliyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin kollektivləri Naxçıvan Dövlət Tarix Muzeyində, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının, Maliyyə və Vergilər nazirliklərinin əməkdaşları Ədəbiyyat Muzeyində, Ədliyyə və Fövqəladə Hallar nazirliklərinin, Dövlət Gömrük Komitəsinin əməkdaşları “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin, Dövlət Arxiv İdarəsinin, Dini Qurumlarla iş üzrə İdarənin kollektivləri “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində olmuşlar.

Həmin gün Dövlət Miqrasiya Xidmətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin və Dövlət Baytarlıq Xidmətinin əməkdaşları Bəhruz Kəngərli Muzeyini, Standartlaşdırma, Metrologiya və Patent üzrə, Ailə, Qadın və Uşaq Problemləri üzrə, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət komitələrinin kollektivləri Xatirə Muzeyini, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin, Televiziya və Radio Şurasının və “Şərq qapısı” qəzetinin, Dövlət Statistika, Meliorasiya və Su Təsərrüfatı komitələrinin əməkdaşları Hüseyn Cavidin ev-muzeyini, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşları Cəlil Məmmədquluzadənin ev-muzeyini, Mərkəzi Seçki Komissiyasının, Dövlət Sosial Müdafiə Fondunun və Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin kollektivləri Cəmşid Naxçıvanskinin ev-muzeyini ziyarət etmişlər.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Dövlət Təhlükəsizlik Xidmətinin və Daxili İşlər Nazirliyinin kollektivləri isə Nəbatat bağı ilə tanış olmuşlar.

İyunun 25-də muxtar respublikanın şəhər və rayon icra hakimiyyətlərinin, eləcə də mərkəzi icra hakimiyyəti orqanlarının şəhər və rayonlardakı idarə, müəssisə və təşkilatlarının əməkdaşları da rayon mərkəzlərində və kənd yaşayış məntəqələrində fəaliyyət göstərən muzeyləri ziyarət etmişlər.

**✍ Muxtar MƏMMƏDOV**

## *İsrail səfiri Dan Stav:* Naxçıvan böyük turizm potensialına malikdir

***Xəbər verdiyimiz kimi, iyunun 21-dən 23-dək İsrail Dövlətinin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Dan Stav Naxçıvan Muxtar Respublikasına səfər edib. Səfər çərçivəsində diplomat muxtar respublikamızın istehsal, təhsil, mədəniyyət və səhiyyə müəssisələri, tarixi abidələri, gəzməli-görməli yerləri ilə tanış olub. İsrail səfiri ilə söhbətimiz də məhz səfərinin məqsədi və səfər təəssüratları barədə oldu. Dan Stav əvvəlcə Naxçıvan Muxtar Respublikasına səfərinin məqsədi barədə danışaraq dedi:***



– Bu, mənim Naxçıvan Muxtar Respublikasına ilk səfərimdir. Səfərimin məqsədi Azərbaycan ilə İsrail arasında münasibətlərin inkişafı fonunda Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə də əlaqələrin genişləndirilməsidir. Burada bir sıra görüşlər keçirdim və əməkdaşlığın inkişaf etdirilməsinin yollarını müzakirə etdik. Bunu vurğulamaq istərdim ki, Naxçıvan Muxtar Respublikası ilə İsrail Dövləti arasında əlaqələrin inkişafı üçün geniş imkanlar mövcuddur. Xüsusən turizm, kənd təsərrüfatı, səhiyyə sahələrində əlaqələr yaradıla bilər. Biz əməkdaşlığın yaradılmasını və inkişaf etdirilməsini səbirsizliklə gözləyirik. Ümid edirəm ki, muxtar respublikaya səfərim qarşılıqlı, faydalı əlaqələrin inkişafına töhfə verəcəkdir.

– Siz muxtar respublikanın istehsal, səhiyyə, mədəniyyət, təhsil müəssisələri, gəzməli-görməli yerləri, tarixi abidələri ilə də tanış oldunuz. Muxtar respublikadan hansı təəssüratlarla ayrılırsınız?

– Naxçıvan Muxtar Respublikasında gördüklərim mənə çox böyük təəssüratlar bəxş etdi. Xüsusən Naxçıvan şəhərinin təmizliyi, gözəlliyi məni valeh etdi. Qeyd etdiyiniz kimi, biz muxtar respublikanın bir sıra turizm məkanlarında olduq. Həqiqətən də, muxtar respublika böyük turizm potensialına malikdir. Biz istərdik ki, bu sahədə də əlaqələri genişləndirək və İsraildən Naxçıvana turistlər gəlsin, bu gözəl diyarı tanısınlar.

Ümumi qənaətim belədir ki, muxtar respublika həm kənd təsərrüfatı, həm də sənaye sahələri baxımından xeyli inkişaf edib. Bu sahələrdə xeyli iş görülüb. Burada keyfiyyətli və ekoloji cəhətdən təmiz kənd təsərrüfatı məhsulları diqqətimi cəlb etdi.

**✍ Rauf ƏLİYEV**

***Vətən tarixinin çox çətin, mürəkkəb və məğrur dövrləri var ki, onları yazmamaq olmur. Çünki o dövrlərdə zamanın tələbi ilə cəsur insanların döyüş hünərləri var. Bəzən zaman onları unutdurur, amma insan yaddaşı ötüb keçənləri unutmur. Vətən təəssübünü çəkənlərin, onun uğrunda döyüşənlərin adları və şücaətləri isə nəsilbənəsil yaddaşlarda yaşayır. Yaddaşlarda yaşananlar isə tarixdir. Doğrudur, keçmişi və yaşananları dəyişmək qeyri-mümkündür. Amma keçmişdə yaşananları hər kəs istədiyi kimi yaza bilər. Təəssübkeş və əsl tədqiqatçı isə ancaq həqiqətləri yazar ki, gələcək nəsillər üçün həmişəyaşar ideyalar olsun. Onlar da bu ideyaları daha da inkişaf etdirib özlərindən sonrakı nəsillərə əmanət edə bilsinlər. İnsan yaddaşında olanlar çox vaxt kağızlara köçürülərək arxivlərdə qorunur, saxlanılır. Zaman gələndə həmin sənədlər sanki dil açaraq ötüb-keçən tarixi hadisələri danışır... Çünki zaman və tarix bir-birindən ayrılmazdır.***

*Axtarışlar, tapıntılar*

## 1918-1920-ci illərdə Naxçıvanın cəsur döyüşçülərindən biri –

# Əli bəy Əzimbəyov

1919-cu ilin yanvar ayı. Erməni daşnakları polkovnik Doluxanovun (Doluxanyanın) komandirliyi ilə Sədərəyə, Dəmirçiyə və Şərur mahalının digər kəndlərinə hücuma başlayırlar. Sədərəkli Həsən Şahverdi oğlunun rəhbərliyi ilə yerli əhalidən yaradılan tabor düşmənlə məharətlə döyüşür. Vedi tam mühasirədə olduğundan Naxçıvan taboru köməyə gəlir. Naxçıvan taborunun komandiri gənc polkovnik III Kalbalı xan Naxçıvanski idi. Qeyd edək ki, bu taborun tərkibində məharətli döyüşçülər çox idi. Ona görə də Vəlidağda gedən döyüşlərdə erməni daşnaklarını məğlub edirlər. Naxçıvan taboru Sədərəyi mühasirədən çıxarır. Bu böyük döyüşdə igidlik göstərən döyüşçülərdən biri də Əli bəy Məhəmməd bəy oğlu Əzimbəyov idi. Həmin ilin mart ayında, Novruz bayramı günü daşnak qoşunları azğıncasına Naxçıvana basqın edirlər. Yenə də III Kalbalı xan Naxçıvanskinin taboru döyüşlərdə qəhrəmanlıq göstərir.

Azərbaycan Xalq Cümhuriyyətinin 25 mart 1919-cu il tarixli 155 nömrəli əmri ilə Naxçıvanın bir qrup döyüşçüsünə göstərdikləri döyüş hünərlərinə görə hərbi rütbə verilir. Qeyd edək ki, bu tarixi sənəd görkəmli tarixçi alim Əli Əliyevin şəxsi arxivindəndir. Şərur və Naxçıvan qəzalarını erməni daşnak quldurlarından azad edən naxçıvanlı döyüşçülər hərbi nazir, artilleriya generalı Səməd bəy Mehmandarovun imzaladığı əmrdə adbaad yazılıb: Piyada ordunun praporşik rütbəsi alanlar: Heydər ağa Bənəniyarski, Fətəli xan Naxçıvanski, Məsuməli Bənəniyarski, Qəhrəman bəy Kəngərli, Ələkbər Namazov, Həsən Musayev, Cabbar bəy Kələntərov, Adil bəy Qənbərlinski, Davud xan Naxçıvanski, Hüseyn xan İrəvanski və Allahyar xan İrəvanski.

Polis (milis) döyüşçülərdən praporşik hərbi rütbəsi alanlar: Hacı Xəlil İmanov, Vəli ağa Allahverdiyev, Kərbəlayı Muxtar Hacıyev, Əmirəli bəy Bənəniyarski, Kərbəlayı Rəhim Rizayev, Mirzə Zeynəddinski, Məmmədrza bəy Allahverdiyev, Məşədi Ələkbər bəy Camalbəyov, Əli bəy Əzimbəyov, Süleyman ağa Kəngərlinski, Əli Ağayev, Hüseyn Əliyev, Cəfər bəy Rizayev, Saleh Ələkbərov, Məmmədrəhim Hüseynov, Muxtar Nəsirov.

Qeyd edək ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə döyüşdə fərqlənənlər ilin istənilən günündə təltif edilə bilərdilər. Ancaq adi qaydada hərbi rütbələr Novruz, Ramazan və Qurban bayramları günlərində verilirdi.

Bu əmrdə qeyd olunub ki, Naxçıvanda general-qubernatorun köməkçisi Bəhram xan Naxçıvanskidir. Hərbi nazirin imzaladığı bu əmrdə Baş Qərargahın rəisi general-mayor Səlimovun da imzası vardır.

İndi keçək əsl mətləbə, yəni cəsur döyüşçü Əli bəy Əzimbəyovdan söhbət açaq.

Əli bəy Məhəmməd bəy oğlu Əzimbəyov XIX əsrin sonlarında Naxçıvan şəhərində dünyaya göz açıb. Araşdırmalardan məlum olur ki, Məhəmməd bəyin Həmzə bəy adında qardaşı və Fatmabəyim adlı bacısı olub.

Əli bəy mədrəsədə və Naxçıvan şəhər qəza məktəbində təhsil alıb.



*Əli bəy Əzimbəyov və onun həyat yoldaşı Əminə xanım*

Atası onu mədrəsəyə ona görə oxumağa qoymuşdu ki, ərəb və fars dillərini yaxşı öyrənsin.

Əli bəyin Naxçıvan milisində (polisində) işləməsi haqda məlumat vardır. Hətta bu, yuxarıda söhbət açdığımız əmrdə də öz təsdiqini tapıb.

Əli bəy yaxın qohumu Hacı Ələkbər bəy Əliyevin (sonralar varisləri Əlizadə soyadını işlətmişlər) 1904-cü ildə doğulan qızı Əminə xanımla ailə qurub.

Hacı Ələkbər bəy haqqında çox az məlumat vardır. O, Naxçıvanın tanınmış tacirlərindən olduğu üçün zəngin olub. Hələ çar Rusiyası dövründə ovaxtkı Puşkin küçəsi ilə Zaviyə məhəlləsini birləşdirən küçənin kəsişdiyi yerdə Naxçıvan memarlığında ev tikdirmişdi. Yerli naxçıvanlıların təbirincə desək, Hacı Ələkbər bəyin evinin 10 pəncərəsi Bilan məhəlləsinə, yəni Puşkin küçəsinə baxırmış. Bağlı-bağatlı həyətin darvazası isə Zaviyə məhəlləsinə istiqamətlənən küçəyə (1920-ci ildən sonra o küçə Pioner küçəsi adlandırılmışdı) açılırmış. Əli bəy qayınatasının vəfatından sonra onun evinə köçür ki, sonbeşik qızı Həcər xanım tək qalmasın. Bacısı Əminə xanım onu himayə etsin. Həcər xanımın qızı Zərri Sultanovanın dediyinə görə, Hacı Ələkbər bəy taxta çarpayının ayağını qızılla doldurubmuş. Və Əli bəyə, həmçinin qızı Əminə xanıma vəsiyyət edibmiş ki, Həcəri oxutsunlar. Məqamındaca deyək ki, Əli bəy Naxçıvanda dövrünün maarifçi şəxsiyyətlərindən olub. Bir az da irəli gedərək deyək ki, Əli bəy və Əminə xanım Hacı Ələkbər bəyin arzusunu yerinə yetiriblər. 1914-cü ildə doğulmuş Həcər xanım təhsil alıb, Naxçıvan şəhərinin 2 nömrəli məktəbində uzun illər müəllimlik edib və 1994-cü ildə dünyasını dəyişib.

Əli bəylə Əminə xanımın nikahından Laçın (1925), Fəxriyyə (1927), Foqiyə (1930) və Aydın (1932) adlı övladları olub.

1920-ci ildə Naxçıvanda sovet hökuməti qurulandan sonra Əli bəy və onun ailəsi təqib olunmağa başlanıb. Əli bəy özünü və ailəsini, həmçinin yaxın qohumlarını sovet NKVD-sindən xilas etmək üçün siyasətdən tamamilə uzaqlaşıb və ticarət obyektlərində işləyərək gözdən uzaqda olmağa çalışıb. Amma NKVD-də olan erməni bolşeviklər 1918-1920-ci illərdə igidliklə döyüşən və Naxçıvanı onlara verməyən cəsur oğulları heç cür nəzərdən kənarda qoymazdılar. Yəqin ki, Əli bəyin istintaq materiallarında bunlar olmamış deyil.

155 nömrəli əmrdə adları sadalanan döyüşçülərin son taleyindən xəbəri olan varmı? İgid döyüşçüləri ya güllələyiblər, ya sürgünə göndəriblər, yaxud da Naxçıvanda əzabla məhv ediblər. Onların çoxunun arxiv sənədləri ilə tanış olduğuma görə deyirəm bunları. Erməni daşnakları vətən təəssübkeşlərini heç vaxt bağışlaya bilmirdilər. Ona görə Əli bəyə də yeyinti adı ilə böhtan atmaq üçün vasitələr axtarıblar. 1932-ci ildə belə bir hiylə qurublar. Onu həbs edib Murmanska göndəriblər. Fikir verin: "Yeyinti" üstündə ən şimala – Murmanska. Müəyyən axtarışlardan sonra bu mövzuya bir də qayıtmaq fikrimiz var. Bizcə, Əli bəy gizli də olsa, siyasi dustaq kimi Murmanska göndərilib. Amma çox bacarıqlı və qorxmaz insan olan Əli bəy yenidən Naxçıvana, doğmalarının yanına qayıdıb. Lakin bu sevinc uzun sürməyib. Yenidən NKVD-nin sorğu-sualları Əzimbəyovlar ailəsinə rahatlıq verməyib. Azərbaycan SSR-in NKVD-si 1937-ci il mayın 18-də Əli bəy Əzimbəyovun özünü və ailəsini uzaq səhralara – Taldı Kurqana sürgün edib. Əzimbəyovlar ailəsinin sürgün həyatı "Aydın Əzimbəyov – Tarixlə səsləşən ömür yolu" povestində (M.Zaman, Bakı, 2012) təsvir olunub. Amma bizcə bu, Əli bəyin bütünlüklə fəaliyyəti deyil. Biz təkrarsızlığa varmaq istəməməyimizdən Əli bəyin sürgün həyatı haqqında təfsilatı ilə danışmırıq.

Amma onu demək lazımdır ki, Əli bəy Naxçıvan tarixinin elə məğrur dövrünün qəhrəman döyüşçülərindəndir ki, onunla ancaq fəxr etmək olar.

Əli bəy və ailə üzvlərinə 1947-ci ildə icazə verilib ki, Naxçıvana gələ bilərlər. Əli bəy və həyat yoldaşı vəfat edənə kimi doğma vətənləri Naxçıvana gələr və qohum-qardaşları ilə görüşərmişlər. Əli bəy həm də əmisi oğlu Əzimin və onun oğlu Nurunun yaxın dostu idi. Azərbaycan SSR Daxili İşlər Nazirliyinin 10 dekabr 1989-cu ildə verdiyi arayışda Əzimbəyovlar ailəsinə tam bəraət verildiyi bildirilir. Bu vaxt isə nə Əli bəy sağ idi, nə də Əminə xanım. Onlar qürbətdə ömürlərini başa vurmuşdular. Əminə xanım 1972-ci ilin dekabrında, Əli bəy isə 1975-ci ilin yayında dünyalarını dəyişmişdilər. Əli bəyin ailəsi Cənubi Qazaxıstanda yaşasa da, ailə nekropolları Özbəkistanın Sırdərya vilayətinin Baxt qəsəbəsindədir.

Əli bəy insanda elmi, biliyi çox yüksək qiymətləndirib. O, öz övladlarının da ali təhsil almaları üçün var gücü ilə çalışıb.

Onun oğlu Aydın Azərbaycanın və Özbəkistanın görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Özbəkistanda fövqəladə və səlahiyyətli səfiri olub.

Yazımızın əvvəlində demişdik ki, Məhəmməd bəyin Həmzə bəy adında qardaşı olub. Həmzə bəyin oğlu Əzim və onun varisləri doğma Naxçıvanda yaşayıblar və onun inkişafında bacarıqlarını əsirgəməyiblər. Onların varisləri indi də Naxçıvanda yaşayırlar.

*Beləcə, 1918-1920-ci illərdə Naxçıvanı amansız, qəddar daşnaklardan qoruyan cəsur döyüşçü Əli bəy haqqında az da olsa məlumat verdik. Bizim isə Əli bəyə və onun döyüşçü dostlarına mənəvi borcumuz var. Bu mənada ki, onları unutmayaq, xatırlayaq, fəaliyyətlərini araşdırıb gənc nəslə təqdim edək. Onlar belə bir ehtirama layiqdirlər.*

**Musa QULİYEV**
***AMEA Naxçıvan Bölməsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru***




***AMEA Naxçıvan Bölməsinin Nəbatat bağı bitkilər və ağacların qorunduğu unikal bir məkandır. Nəbatat bağında bitkilərin biomüxtəlifliyinin öyrənilməsi və toxum genofondunun yaradılması istiqamətində ardıcıl tədbirlər görülür, geniş elmi-tədqiqat işləri aparılır.***

Qeyd edək ki, hər hansı bir ölkəyə, şəhərə səyahət edərkən internet üzərindən oranın gəzməli-görməli yerlərini müəyyən edirik. Rusiya, Gürcüstan, Türkiyə, Yunanıstan, Fransa kimi ölkələrin gəzməli-görməli yerləri arasında Nəbatat bağları özünəməxsus yer tutur.

Məlumat üçün bildirək ki, Nəbatat bağlarının ən qədim nümunələrinə Çində və Aralıq dənizi sahili ölkələrində rast gəlinib. Bu bağlarda meyvə ağacları, tərəvəzlər, dərman istehsalında lazım olan bitkilər becərilib və onlardan istifadə edilib.

Naxçıvan Muxtar Respublikası zəngin bitki örtüyü, heyvanlar aləmi və təbii sərvətlərə malik olan diyardır. Bu baxımdan burada Nəbatat bağının yaradılması əhəmiyyətli və mühüm addımdır. Nəbatat bağının yaradılması məqsədilə 1972-ci ildə Azərbaycan Elmlər Akademiyasının təşəbbüsü və Naxçıvan MSSR Nazirlər Sovetinin qərarı ilə 10 hektar torpaq sahəsi ayrılıb, bu sahə su ilə təchiz edilib və nəticədə, belə bir gözəl məkan yaradılıb. Həmin torpaq sahəsi Babək rayonunun Şıxmahmud kəndi yaxınlığındadır.

Bəs bu gün həmin ünvanda fəaliyyət necə qurulub? Burada hansı işlər həyata keçirilir?

Bu suallara cavab tapmaq üçün AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun Nəbatat şöbəsinin müdiri, biologiya üzrə fəlsəfə doktoru, dosent Teyyub Paşayevlə görüşüb həmsöhbət olduq.

Teyyub müəllim bildirdi ki, Nəbatat bağının yaradılmasında əsas məqsəd insanların Avstraliyanın, Afrikanın, Amerikanın, Aralıq dənizi ölkələrinin, Cənub-Şərqi Asiyanın, Orta Asiyanın, Uzaq Şərqin, Qafqazın zəngin flora nümunələri ilə tanış edilməsidir. Bağın nadir bitkilər kolleksiyası sahəsində Azərbaycan və Naxçıvan Muxtar Respublikasının Qırmızı kitablarına daxil edilmiş bəzi bitki növləri mövcuddur. Burada ayrı-ayrı flora nümunələri üçün sahələr, təcrübə yerləri, nadir bitkilər kolleksiyası, tingçilik sahələri, həmçinin meyvə genofondu bağı yaradılıb. Bu da yerli və məhsuldar toxum sortlarının bərpası baxımından mühüm əhəmiyyət daşıyır.

Qeyd edək ki, hazırda Nəbatat bağının sahəsi 13,2 hektar, muxtar respublika üzrə balansında olan torpaqların sahəsi isə 80 hektardan artıqdır. Nəbatat bağında "Ultra Sera" ailəsinə məxsus son texnologiyaya malik istilikxana quraşdırılıb. İstilikxana tam avtomatlaşdırılmış iqlim-nəzarət, istilik, havalandırma və suvarma sistemləri ilə təchiz edilib. Müasir texnologiyaların tətbiqi bitkilərin normal inkişafına imkan verir. Burada sitrus, Hind-Çin, Afrika, Avstraliya, Ərəbistan və digər bu kimi mənşəli bitkilər olmaqla, 10 bölmə yaradılıb və 100-ə yaxın bitki əkilib. Artıq bu bitki növlərinin bəziləri muxtar respublikanın iqlim şəraitinə uyğunlaşdırılıb və açıq havada çoxaldılmasına başlanılıb. Təcrübə sahələrində Naxçıvan Dövlət Universitetinin Biologiya və Coğrafiya ixtisaslarının tələbələrinin iştirakı ilə açıq dərslər keçirilir.

Teyyub müəllim bildirdi ki, orta məktəb şagirdlərinin, xüsusilə bu sahədə mütəxəssis olmaq istəyənlərin Nəbatat bağı ilə tanışlığı təşkil olunur. Bu həm onların ixtisaslarını yaxşı bilmək baxımından faydalıdır, həm də fərqli bitkilərlə yanaşı, Naxçıvanımızın bitkilər aləmi ilə tanışlıqlarına şərait yaradır.

Teyyub Paşayev Nəbatat bağında aparılan elmi-tədqiqat işləri barədə də məlumat verdi:

– Çalışırıq ki, yeni bitki növləri gətirək və Nəbatat bağını daha da zənginləşdirək. Naxçıvanın yaşıllaşdırılmasında yeni dekorativ ağac və kollar, efiryağlı və çiçəkli bitkilər tətbiq olunur. Nəbatat bağında dünyanın müxtəlif botaniki-coğrafi rayonlarından, o cümlədən Azərbaycan florasından xeyli sayda ağac, kol, çiçək və ot bitkilərinin kolleksiyası toplanıb. Gürcüstanın Batumi Nəbatat bağından 36 sayda ağac və kol bitkisi gətirilib. Nəbatat bağında respublikamızda bitki ehtiyatlarının xammal bazasını zənginləşdirmək məqsədilə Azərbaycanda və xarici ölkələrdə bitən bəzək, dərman, efiryağlı və digər faydalı bitkilərin introduksiyası və iqlimləşdirilməsi, bitki genofondunun, o cümlədən nadir və nəsli kəsilməkdə olan bitkilərin çoxaldılması istiqamətində geniş elmi-tədqiqat işləri aparılır.

Teyyub müəllimlə Nəbatat bağını gəzirik. Buranın əsrarəngiz yaşıllığı könlümüzü oxşayır. Müxtəlif ölkələrin təbiətinə xas bir çox bitki və ağac növləri ilə tanışlıq bizdə xoş ovqat yaradır. Buradakı kofe ağacı, aqava, səhra bitkiləri, yunan qozu və sair bu kimi nümunələr göz oxşayır. Bununla birlikdə Azərbaycan florasına aid bir çox bitki və ağac növləri ilə də tanış oluruq. Bağda yerli meyvə genofonduna daxil olan müxtəlif növ alma, armud, üzüm, ərik sortları yetişdirilir və qorunur. Yabanı armud növlərinin yayılma zonaları dəqiqləşdirilib, bioloji məhsuldarlığı tədqiq edilib, Naxçıvan Muxtar Respublikası florası üçün yeni növlər verilib, bəzi növlər Nəbatat bağına köçürülərək biomorfoloji xüsusiyyətləri izlənilməyə başlanılıb.

Son illər Nəbatat bağında yeni inzibati bina istifadəyə verilib. Burada işçilər üçün lazımi şərait yaradılıb.

İyunun 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Nəbatat bağına gəlib, burada görülən işlərlə maraqlanıb. Bu diqqət Nəbatat bağının muxtar respublika üçün əhəmiyyətini bir daha sübut edir. Ali Məclisin Sədri Nəbatat bağının fəaliyyətinin daha da genişləndirilməsi istiqamətində bir sıra tapşırıqlar verib.

Nəbatat bağının muxtar respublikada tətbiq olunan muzey günlərinin qrafikinə salınması, müxtəlif təşkilatların kollektivlərinin bura ilə tanışlığı onun həm də bir muzey kimi qorunub saxlanılması, zənginləşdirilməsi baxımından əhəmiyyətli olduğunu göstərir.

Qeyd edək ki, Nəbatat bağı təbiət gözəlliklərini duymaq, belə gözəlliklərin qədrini bilməklə yanaşı, şagirdlərdə və tələbələrdə təbiət elmlərinə marağın artırılması, Bioresurslar İnstitutunun elmi fəaliyyətinin tanıdılması, bu istiqamətdə tədbirlərin keçirilməsi, alimlərin təcrübəsindən yararlanmaq kimi maraqdoğuran digər fəaliyyətlərin reallaşdırılması üçün də son dərəcə əhəmiyyətlidir.

✍ **Nərgiz İSMAYILOVA**

# 26 İyun Azərbaycan Respublikası Silahlı Qüvvələri Günüdür




## Gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi diqqət mərkəzindədir



***Naxçıvan Dövlət Universitetində “Gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması” mövzusunda tədbir keçirilib.***

Ali məktəbin elmi işlər üzrə prorektoru, dosent Mübariz Nuriyev 26 İyun – Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü münasibətilə keçirilən tədbirin mühüm və aktual mövzuya həsr olunduğunu vurğulayıb. Prorektor bildirib ki, hər bir vətəndaş, xüsusilə dövlətin və xalqın gələcəyi olan gənclər Vətəni sevmək, qorumaq, dünyada təbliğ etmək kimi müqəddəs bir amala xidmət etməlidirlər.

Tərbiyə işləri üzrə prorektor, tarix üzrə fəlsəfə doktoru Şamxal Məmmədov çıxışında müstəqil Azərbaycanın hərbi qüdrətinin artması, Azərbaycan Ordusunun dünyanın ən güclü ordularından birinə çevrilməsi, işğal olunmuş ərazilərin azad edilməsi istiqamətində aparılan uğurlu siyasətin xalqımızda vətənpərvərlik ruhunu, döyüş əzmini yüksəltdiyini bildirib. O, tələbə-gəncləri öz milli mənsubiyyətləri, doğma vətənləri ilə qürur duymağa, istedad və qabiliyyətləri, intellektləri ilə Vətənə xidmət etməyə səsləyib.

Universitetin Fənlərin tədrisi metodikası və texnologiya müəllimliyi kafedrasının müdiri, pedaqogika üzrə elmlər doktoru, professor Elbəyi Maqsudov, İncəsənət fakültəsinin dekanı, sənətşünaslıq üzrə fəlsəfə doktoru Günay Məmmədova çıxışlarında vətənpərvərlik ruhunun təməlinin erkən yaşlarda ailədə, məktəbəqədər tərbiyə ocaqlarında və orta məktəbdə qoyulduğunu, orta ixtisas və ali təhsil müəssisələrinin gənc nəslin bu ruhda yetişib formalaşmasında başlıca rol oynadığını diqqətə çatdırıblar. Qeyd olunub ki, vətənpərvərlik ruhunun aşılanmasında milli poeziya və musiqinin, incəsənətin, qədim və zəngin tariximizin təbliğinin müstəsna əhəmiyyəti var.

Diskussiya şəklində davam edən tədbirdə tələbələr mövzu ilə bağlı fikirlərini bildiriblər, onların sualları cavablandırılıb.

**Mehriban SULTAN**

## *“İnam”* musiqi qrupu hərbçilər qarşısında çıxış edib





“İnam” musiqi qrupu tarixi və əlamətdar günlərdə hərbi hissələrdə olur, zabit və əsgərlərlə görüşür, onlar qarşısında konsert proqramı ilə çıxış edir.

İyunun 24-də musiqi qrupunun Şahbuz rayonunda yerləşən “N” hərbi hissənin zabit və əsgərləri qarşısında konsert proqramı təşkil olunub.

İfa olunan hər bir musiqi nömrəsi zabit və əsgərlərimiz tərəfindən alqışlarla qarşılanıb.

Hərbçilər musiqi kollektivinin üzvlərinə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, tədbir 26 İyun – Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü münasibətilə təşkil edilib.

## Voleybol üzrə yoldaşlıq görüşü keçirilib

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində 26 İyun – Silahlı Qüvvələr Gününə həsr olunmuş voleybol üzrə yoldaşlıq görüşü keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Voleybol Federasiyasının birgə təşkil etdiyi görüşdə “Naxçıvan” və “Culfa” komandaları üz-üzə gəlib.

Görüşdən öncə çıxış edən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi Aparatının Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov bildirib ki, ölkəmizdə ordu quruculuğu da ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər müstəqil Azərbaycanın əsas atributlarından hesab edilən ordumuzu daim diqqət mərkəzində saxlayır, mütəmadi olaraq cəbhə bölgələrində əsgərlər və zabitlərimizlə görüşürdü. Ümummilli liderimizin yaratdığı ordu bu gün düşmənə hər an sarsıdıcı zərbə vurmağa hazırdır.

Voleybol Federasiyasının sədr müavini Aydın Mirzəyev isə iştirakçı idmançılara yarışın qaydaları haqqında məlumat verib, onlara uğurlar arzulayıb.

Gərgin idman mübarizəsi şəraitində keçən görüş Culfa voleybolçularının 3:2 hesablı qələbəsi ilə yekunlaşıb.

Sonda idmançılara federasiyanın hədiyyələri təqdim edilib.

**✍ Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1050. Sifariş № 493